# Mir Cəlalın evində “Çillə gecəsinin nağılları”

***Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin təşəbbüsü ilə “Ədibin evi”ndə Məhəmməd Mirkeyaninin “Çillə gecəsinin nağılları”kitabının müzakirəsi keçirilib . Qeyd edək ki, bu ünvan Azərbaycanın görkəmli yazıçısı, alim-pedaqoq Mir Cəlal Paşayevin 1920-1940-cı illərdə yaşadığı evdir.***

Bildirildi ki, tədbirdə əsas məqsəd ədibin əsərlərini təhlil etməklə yanaşı, həm də Azərbaycanda mövcud olan multikultural dəyərləri gənclərə aşılamaq, tələbələri bu istiqamətdə maarifləndirməkdir. Bu mənada, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin belə silsilə tədbirlər keçirməsi Prezident İlham Əliyevin “multikulturalizmin alternativi yoxdur” kəlamından qaynaqlanır. Belə ki, dövlət başçımız hər zaman gənclərin həm vətənpərvər ruhda, həm də milli-mənəvi və insani dəyərlərin üstünlük təşkil etdiyi tərzdə yetişdirilməsinin Azərbaycanın gələcəyi üçün olduqca əhəmiyyətli olduğunu qeyd edir.

Tədbirin təşkilatçısı– filologiya üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin müəllimi Familə Nəcəfova əvvəlcə bu qəbildən olan layihələri həyata keçirmək üçün, tələbə və müəllim heyətinə şərait yaradan universitetin rektoru Elçin Babayevə təşəkkürünü bildirdi. Sonra xatırlatdı ki, ölkəmizdə multikultural dəyərlər tarixi və milli ənənəyə çevrilib.

Dövlət başçımızın bu məqama xüsusi önəm verdiyini qeyd edən Familə xanım dedi ki, biz də əlimizdən gəldiyi qədər gənclərə insanpərvərlik, milli və mənəvi dəyərləri təlqin etməyə, onları Azərbaycanın gələcəyi üçün yetişdirməyə çalışırıq.



Tədbirdə ədibin və müasirlərinin hekayələrini təhlil edən gənclər bu əsərlərdə oxuyucuya təqdim edilən insani dəyərləri, eləcə də mənəvi keyfiyyətləri qabardaraq, bunlar ölkəmizdə həyata keçirilən humanist daxili siyasətlə əlaqələndirdilər və multikulturalizmin dünya üçün önəmini vurğuladılar.

***Hazırladı:***
***İmran ƏLİYEV,***
***“Xalq qəzeti”***